**“NÜFUZLU ELMİ NƏŞRLƏRDƏ ƏSƏRLƏRİ ÇAP EDİLƏN UNEC ƏMƏKDAŞLARININ MÜKAFATLANDIRILMASI HAQQINDA”**

# Q A Y D A L A R

*(ən son əlavə və dəyişikliklərlə 13 sentyabr 2023-cü il Protokol №189)*

***UNEC Elmi Şurasının  14 sentyabr  2018-ci il***

***tarixli  161  saylı qərarı ilə təsdiq edilmişdir.***

**Maddə 1. Ümumi müddəalar**

Bu qaydaların məqsədi UNEC əməkdaşlarının nüfuzlu elmi nəşrlərdə əsərlər çap etdirmələrini stimullaşdırmaqdır.

Qaydalar "Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi" əsasında hazırlanmışdır.

**Maddə 2. Qaydaların tətbiq dairəsi**

Bu Qaydalar nəşr etdirdiyi əsərində iş yeri kimi UNEC-i göstərən bütün UNEC əməkdaşlarına şamil olunur. Bu zaman əməkdaş UNEC-də tam ştat işləyirsə, əsərində də iş yeri kimi UNEC-i birinci göstərməsi zəruridir.

**Maddə 3. Mükafatlandırma forması**

"Web of Science" (A&HCI, SSCI və SCI-EXPANDED istinad indeksləri) və ya "Scopus" bazasındakı jurnallarda 2 və daha çox ölkənin alimləri ilə birgə çap etdirilmiş əsərlərə görə mükafatlar aşağıdakı qaydada müəyyən edilir:

- Q1 kateqoriyalı jurnaldakı hər bir əsər üçün – 4500 AZN
- Q2 kateqoriyalı jurnaldakı hər bir əsər üçün – 3000 AZN
- Q3 kateqoriyalı jurnaldakı hər bir əsər üçün – 1500 AZN

"Web of Science" (A&HCI, SSCI və SCI-EXPANDED istinad indeksləri) və ya "Scopus" bazasındakı jurnallarda 1 ölkənin alimi (və ya alimləri) tərəfindən çap etdirilmiş əsərlərə görə mükafatlar aşağıdakı qaydada müəyyən edilir:

- Q1 kateqoriyalı jurnaldakı hər bir əsər üçün – 3000 AZN
- Q2 kateqoriyalı jurnaldakı hər bir əsər üçün – 2000 AZN

"Web of Science" və ya "Scopus" bazasına daxil olan kitab və ya kitab bölmələrinin (konfrans kitabları istisna olmaqla) çapına görə aşağıdakı qaydada mükafatlar müəyyən edilir:

- Kitab (2 və daha çox ölkənin alimləri ilə birgə çap edilən hər bir kitab üçün) – 4500 AZN
- Kitab (1 ölkənin alimi və ya alimləri tərəfindən çap edilən hər bir kitab üçün) - 4000 AZN
- Kitab bölməsi (2 və daha çox ölkənin alimləri ilə birgə çap edilən hər bir kitab bölməsi üçün) – 1500 AZN

UNEC əməkdaşlarına yuxarıda nəzərdə tutulan mükafatlar, birmüəllifli əsərlərdə tam məbləğdə, çoxmüəllifli əsərlərdə isə tam məbləğin müəlliflərin sayına bölünməsi yolu ilə əldə edilən məbləğdə ödənilir.

**Maddə 4. Mükafatın verilməsinin qayda və prosedurları**

Bu Qaydalarda nəzərdə tutulan nüfuzlu elmi nəşrlərdə əsəri çap edilən UNEC əməkdaşı mükafat üçün ilk növbədə UNEC Rektoruna ərizə ilə müraciət edir. Əməkdaş ərizəsində əsərinin çap edildiyi nəşrin adını və əgər varsa, təsir faktorunu (kvartil), əsərinin adını və əgər varsa, həmmüəllifləri qeyd edir. Bu zaman ərizəyə aşağıdakı məlumatların əlavə edilməsi mütləqdir:

1. Nəşrin rəsmi saytından məqalənin çap edilməsini təsdiq edən müvafiq internet səhfəsinin linki və surəti;
2. Əsərin “Web of Science” və ya “SCOPUS” bazasında yerləşməsini təsdiq edən müvafiq internet səhfəsinin linki və surəti.

Əgər nüfuzlu elmi nəşrlərdə çap edilən əsər bir neçə UNEC əməkdaşı tərəfindən yazılmışdırsa, o zaman həmin əsərə görə mükafatlandırma üçün Rektora yalnız bir dəfə ərizə ilə müraciət edilir və bu zaman ərizəni UNEC əməkdaşı olan bütün müəlliflər imzalayır.

Rektor ərizəni, orada qeyd edilən məlumatların yoxlanılması məqsədilə UNEC-də fəaliyyət göstərən “Professor-müəllim Heyətinin Xidməti Fəaliyyətinin Qiymətləndirilməsi üzrə Daimi Komissiya”ya göndərir. Komissiya ərizədə qeyd edilən məlumatları yoxladıqdan sonar Rektora müvafiq qaydada təqdimat yazır. Rektor, bu təqdimata uyğun olaraq, əməkdaşın mükafatlandırılması haqqında müvafiq əmr imzalayır.

**Maddə 5. Yekun müddəalar**

Qaydalar UNEC Elmi Şurasının müvafiq qərarı ilə təsdiq edildikdən sonra qüvvəyə minir.

Qaydalara dəyişiklik və əlavələr UNEC Elmi Şurasının müvafiq qərarı ilə həyata keçirilir.